Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

İyul 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

**Qeyri-neft ixracımız 25 faizdən çox artıb.**

Bizim xarici ticarətimiz də böyük dərəcədə artıb - haradasa 70 faizdən çox. İxracımız 2 dəfədən çox artıb. Qeyri-neft ixracımız 25 faizdən çox artıb. Xarici ticarət balansının müsbət saldosu 6 ayda 12,1 milyard dollardır. Bütün bu rəqəmlər hər bir ölkə üçün qürur mənbəyi ola bilər.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2022-ci il 15 iyul tarixində bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 13

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ____ səh. 16

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 18

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ____ səh. 20

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 23

2022
İXRAC İCMALI
iyul

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-iyun ayları ərzində 18,5 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə ixrac 1,5 milyard ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycanın ixracı 18,5 mlrd. ABŞ dolları, qeyri-neft sektoru üzrə 1,5 mlrd. ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci il ilə müqayisədə 295,4 mln. ABŞ dolları və ya 25,4% artıb.

2022-ci ilin yanvar-iyun ayları ərzində meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 7,1% artaraq 328,1 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində kimya sənayesi məhsullarının ixracı 5 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 2 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 26,1%, pambıq lifi ixracı isə 12,8%, pambıq iplik ixracı 5,2% artıb.

2022-ci ilin yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (**136,9 milyon ABŞ dolları**) birinci olub. Bu siyahıda tomat (pomidor) (**126,9 milyon ABŞ dolları**)

ikinci, karbamid (**98,7 milyon ABŞ dolları**) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-iyun ayları ərzində Türkiyəyə **428,4 milyon ABŞ dolları**, Rusiya Federasiyasına **382 milyon ABŞ dolları**, Gürcüstana **88,2 milyon ABŞ dolları**, İsveçrə Konfederasiyasına **84,6 milyon ABŞ dolları** və ABŞ-a isə **57,5 milyon ABŞ dolları** dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin iyun ayı üzrə ixrac 3,1 mlrd ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 5,8% təşkil etməklə 269,6 mln. ABŞ dolları olub. 2022-ci ilin iyun ayı ərzində yeyinti məhsulları üzrə ixrac 6,6% artaraq 119,6 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 5,1% artaraq 149,9 milyon ABŞ dolları təşkil edib.

2022-ci ilin iyun ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası **(118,6 milyon ABŞ dolları)** birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə **(38,2 milyon ABŞ dolları)** ikinci və İsveçrə **(18,2 milyon ABŞ dolları)** üçüncü olub.

2022-ci ilin iyun ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında tomat (pomidor) **(35,8 milyon ABŞ dolları)** birinci, albalı və gilas **(34,2 milyon ABŞ dolları)** ikinci və kartof **(20,2 milyon ABŞ dolları)** üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-İYUN AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2022-Cİ İLİN İYUN AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyul



# 2022-Cİ İLİN İYUN AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyul



# 2022-Cİ İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyul



# 2022-Cİ İLİN İYUN AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| 2022 | Ölkə | 2021 |
|---|---|---|
| 118,6 | Rusiya | 124,4 |
| 38,2 | Türkiyə | 54,5 |
| 18,2 | İsveçrə | 26,5 |
| 13,5 | Gürcüstan | 11 |
| 13 | ABŞ | 0.8 |

# 2022-Cİ İLİN YANVAR-İYUN AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Pambıq mahlıcı | 136,9 | 121,9 |
| Tomat (pomidor) | 126,9 | 123,6 |
| Karbamid | 98,7 | 7,6 |
| Qızıl | 79,4 | 107,9 |
| Metanol (metil spirti) | 70,7 | 11,9 |
| Meşə fındığı | 55,6 | 40,3 |
| Emal olunmamış aluminium ərintiləri | 43,6 | 13,3 |
| Polimerləşmədə ilkin formalı maddələr | 42,2 | 17,7 |
| İlkin formalı polipropilen | 41 | 52 |

# 2022-Cİ İLİN YANVAR-İYUN AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN İYUN AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2022 İXRAC İCMALI iyul

| | 2022 | 2021 |
|---|---|---|
| Tomat (pomidor) | 35,8 | 36,6 |
| Albalı və gilas | 34,2 | 29,3 |
| Kartof | 20,2 | 18,5 |
| Qızıl | 16,5 | 20,5 |
| Karbamid | 14,7 | 5,4 |
| Pambıq mahlıcı | 13,1 | 13,4 |
| Metanol (metil spirti) | 10,6 | 8,6 |
| Emal olunmamış alüminium ərintiləri | 8,8 | 2,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 8,8 | 0 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-iyun ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "P-Aqro" MMC, "STP Alüminium" MMC, "Şimal AqroPark" MMC, "Rose Servis" MMC, "ZR-78 Company" MMC, "Almeyvə" MMC, "Mors Trading" MMC, "Aqrovest" MMC

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "AzerGold" QSC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyul



# 2022-Cİ İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI iyul




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** «AzərGold» QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-iyun aylarında “Azərkosmos” ASC 13,1 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-iyun aylarında “Azərkosmos” tərəfindən dünyanın 34 ölkəsinə **13,1 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. “Azərkosmos”-un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **87** faizini təşkil edib. 2022-ci ilin iyun ayında isə “Azərkosmos” dünyanın 32 ölkəsinə **2,3 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-iyun ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə **3,3 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **2,8 milyon ABŞ dolları** ilə Fransa, **2,2 milyon ABŞ dolları** ilə Lüksemburq, **1,2 milyon ABŞ dolları** ilə BƏƏ və **0,7 milyon ABŞ dolları** ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR-İYUN AYLARINDA "AZƏRKOSMOS" 13,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



Xidmət ixrac etdiyi 5 əsas ölkə



4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1,1 milyard manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin iyun ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **203,6 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-iyun aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **1,1 milyard manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR
## (milyon manatla)

| | 2020 | 2021* | 2022 |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | 19,7 | 64,1 | 136,6 |
| May | 24,3 | 81,3 | 184,1 |
| İyun | 23,7 | 89,7 | 203,6 |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **279,7 mln** | **512,7 mln** | **1,1 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 3 milyard 082 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin iyun ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **33,4 milyon** ABŞ dolları təşkil edib.

2022-ci ilin yanvar-iyun aylarında Azexport.az portalına **248,4 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin iyun ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin tərkibində tibbi zəli, tibbi tənzif, qara çay, pambıq yağı, boya, alkaqolsuz (energetik) içkilər, meyvə kompotu, sement (tikinti materialı), konservləşdirilmiş tomat, günəbaxan yağı və s. məhsullar üstünlük təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 30 iyun tarixinə kimi (66 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **3,08 (3,082.4) milyard ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN İYUN AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

AZEXPORT.AZ
Made in Azerbaijan

- Tibbi zəli
- Nar konsentratı
- Qara çay
- Tibbi tənzif
- Pambıq yağı
- Meyvə kompotu
- Sement
- Günəbaxan yağı

6

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin iyul ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 17,4 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2022-ci ilin iyul ayı ərzində **173 müraciət** daxil olub. Müvafiq dövr ərzində **351 ədəd sertifikat** (86 ədəd mənşə, 14 ədəd baytarlıq, 241 ədəd fitosanitar, 9 ədəd CİTES, 1 ədəd mədəni sərvətlərin mühafizəsi şəhadətnaməsi) təqdim edilib.

2022-ci ilin iyul ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **17,4 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq çiyidi, pambıq çiyidinin cecəsi, pambıq tiftiyi, pendir, kərə yağı, ayran, limonad, biyan kökü, iribuynuzlu heyvanların dondurulmuş qarnı, iribuynuzlu heyvanların emal olunmamış gönlərin kəsikləri, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, nar, heyva, alma, qarışıq şirələr, narşərab, dondurma, biyan kökü, yeşiklərdə fermentləşdirilmiş qara çay, siqaret, rəsm əsəri, ağcaqayın şponu, kompost, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli

metallar, polad boru, iribuynuzlu heyvanların dəriləri, süd məhsulları və meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Türkiyə, İtaliya, Litva, Belarus, Özbəkistan, İran, İraq, Macarıstan, ABŞ, Yeni Zelandiya, Qazaxıstan, Türkmənistan, Almaniya, Avstraliya, Fil Dişi Sahili, Gürcüstan, Rusiya, Tatarıstan, Rumıniya, BƏƏ, Honq-Konq, Belçika üstünlük təşkil etmişdir.



# 2022-Cİ İLİN İYUL AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

## (milyon ABŞ dolları ilə)



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)





68,7% Fitosanitar sertifikatı

24,5% Mənşə sertifikatı

4% Baytarlıq sertifikatı

2,6% CITES sertifikatı

0,3% Mədəni sərvətlərin mühafizəsi şəhadətnaməsi

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat